UOT 343.1

# CİNAYƏT-PROSESSUAL FORMA KATEQORİYASINA ELMİ YANAŞMA: NƏZƏRİ TƏHLİL

**M.A.PAŞAZADƏ**
***Bakı Dövlət Universiteti***
***mpashazade@gmail.com***

*Bu məqalə cinayət-prosessual forma anlayışına həsr edilmişdir. Müəllif qeyd edir ki, «cinayət-prosessual forma» kateqoriyasına tez-tez müraciət olunmasına baxmayaraq, cinayət-prosessual formanın anlayışı və strukturu ilə bağlı məsələ açıq qalmışdır. Məqalənin yazılmasında məqsəd cinayət-prosessual formanın məzmunu ilə bağlı klassik və müasir müəlliflərin mövqeyini ümumiləşdirməkdir. Müəllif belə bir nəticəyə gəlir ki, cinayət-prosessual formanı klassik anlaşılması bu gün də aktualdır, müasir interpretasiyaya tələb olunur.*

**Açar sözlər:** cinayət prosesi, prosessual forma, qaydalar, şərtlər, sistem, nəzəri təhlil

Cinayət-prosessual hüquqa dair həm milli, həm də xarici hüquq ədəbiyyatında «prosessual forma» kateqoriyasından geniş istifadə edilsə də, onun vahid anlayışı, özündə ehtiva etdirdiyi elementlərin sistemi və məzmunu barədə fikir müxtəlifliyi hökm sürməkdədir. Bununla belə, tədqiqatın vəzifələrinə nail olmaq üçün və Azərbaycan Respublikasının cinayət prosesində ayrı-ayrı hüquq institutlarının təkmilləşdirilməsini təmin etmək üçün «prosessual forma» kateqoriyasının dəqiq və birmənalı şərh edilməsi zəruridir. Çünki bütün cinayət-prosessual hüquq institutları ilə aparılan hər hansı bir əqli və ya tətbiqi əməliyyat (məsələn, tədqiqatçılar tərəfindən hüquq institutunun doktrinal şərhinin verilməsi və ya ali qanunvericilik orqanı tərəfindən normativ səviyyədə onun hüquqi tənzimləməsi qaydalarının dəyişdirilməsi) məhz həmin institutun prosessual formasının dərk edilməsi, şərh edilməsi, təsbit edilməsi və ya dəyişdirilməsi (təkmilləşdirilməsi, optimallaşdırılması) yolu ilə həyata keçirilir. Odur ki, tədqiqat işinə, ilk növbədə, «prosessual forma» kateqoriyasının özünün şərh edilməsindən başlamağı daha məqsədəuyğun hesab edirik.

Doktrinadakı fikirlərin təhlilinə prof. C.H.Mövsümovun mövqeyinə diqqət yetirməklə başlamaq istərdik. O, «prosessual forma» kateqoriyasını izah edərkən göstərirdi ki: «… prosessual forma cinayət işinin başlanmasından hökmün icra olunmasına və ya icraya yönəldilməsinə kimi cinayət prosesinin hər bir mərhələsinin, həmçinin ayrı-ayrı istintaq və məhkəmə hərəkətlərinin

həyata keçirilməsinin şərtlərini, qaydasını və ardıcıllığını müəyyən edir … cinayət-prosessual qanunvericiliyi cinayət işinin prosesin mərhələləri üzrə hərəkət etməsi şərtləri və ardıcıllığını müəyyən etməklə bərabər, hər bir mərhələnin bütövlükdə aparılmasının prosessual qaydasını da mükəmməl nizama salır … prosessual hüquq normaları ilə həm də ayrı-ayrı istintaq və məhkəmə hərəkətlərinin… nəticələrinin rəsmiləşdirilməsinin prosessual qaydaları nizama salınır» (3, 12).

Prof. C.H.Mövsümov öz fikirlərində həm də «prosessual formanın pozuntusunu» «cinayət-prosessual qanunun əhəmiyyətli dərəcədə pozulması» ilə eyniləşdirir (3, 13). Edilmiş istinad əsasında belə qənaətə gəlmək olar ki, müəllif prosessual formanın aşağıdakı əlamətlərinə işarə etmişdir:

1) cinayət prosesi üçün onun başlanmasından bitməsinədək konkret prosessual forma xasdır;

2) cinayət prosesinin hər bir mərhələsi, onun hər bir mərhələsi daxilində həyata keçirilən hərəkətlər (istintaq hərəkətləri, məhkəmə hərəkətləri) və onların nəticələrinin rəsmiləşdirilməsi konkret prosessual formada həyata keçirilir;

3) prosessual forma cinayət prosesinin mərhələlərinin, hər bir mərhələnin daxilində həyata keçirilən hərəkətin və hər bir hərəkətin nəticəsinin rəsmiləşdirilməsinin həyata keçirilməsi şərtlərini, qaydasını və ardıcıllığını müəyyən edir;

4) prosessual forma qanunla müəyyən edilir, prosessual formanın pozulması qanunun pozulması deməkdir.

Hesab edirik ki, sovet cinayət prosesi konsepsiyasına əsaslanmasına baxmayaraq, prof. C.H.Mövsümovun mövqeyi metodoloji əsas – tədqiqatın əsaslandığı təməl nəzəri tezis kimi müasir dövr üçün də aktual olaraq qalmaqdadır. Təsadüfi deyildir ki, müstəqillikdən sonra prof. M.Ə.Cəfərquliyev tərəfindən hazırlanmış «Azərbaycan Respublikasının cinayət prosesi» dərsliyində də prof. C.H.Mövsümovun mövqeyi olduğu kimi təsdiq edilmişdir (2, 13-14).

Biz, hüquq ədəbiyyatında olan fikirləri nəzərə almaqla, məhz yuxarıda qeyd edilmiş, prof. C.H.Mövsümova məxsus olan mövqenin müasir şəraitə uyğun interpretasiyasının verilməsinin kifayət olduğunu hesab edirik.

Paradoksal olsa da, qeyd etmək lazımdır ki, «prosessual forma» kateqoriyası prosessualist-tədqiqatçıların deyil, ümumi hüquq nəzəriyyəsi sahəsinin mütəxəssisləri tərəfindən işlənib hazırlanmış bir kateqoriyadır. Nəzəriyyədə müxtəlif məzmunlarda izahı verildikdən sonra həmin kateqoriyadan prosessual hüquq sahələrinin tədqiqatçıları da istifadə etməyə başlamışdırlar. Doktrinal dövriyyəyə «prosessual forma» kateqoriyası konkret prosessual sahəyə münasibətdə deyil, ümumiyyətlə hüquqa, daha dəqiq desək, hüquqi prosesə münasibətdə buraxılmışdır və hüquqi prosesin «prosedurluluq» aspektini vurğulayaraq, konkret maddi-hüquqi nəticəyə nail olmanı təmin edən prosedur xarakterli tələblərin, şərtlərin məcmusu kimi başa düşürürdü. Bundan sonra prosessual formadan artıq ayrı-ayrı prosessual hüquq sahələrinin nəzəri

əsaslarında istifadə edilməyə və cinayət mühakimə icraatının cinayət-prosessual formasından söhbət aparılmağa başlandı.

XX əsrin 70-ci illərində «prosessual forma» kateqoriyası dövlət fəaliyyətinin bütün sahələrinə münasibətdə şərh edilirdi. Bununla əlaqədar olaraq, elmi dövriyyədə «dövlət-prosessual forma» anlayışına rast gəlmək mümkün idi (11, 54-59).

«Prosessual forma» kateqoriyasına hüquq nəzəriyyəsinin tədqiqat obyekti kimi baxan müəlliflərdən S.N.Oleynikovu da göstərmək olar. Ötən əsrin 80-ci illərində onun tərəfindən «Hüquqi prosessual formanın ümümnəzəri problemləri» adlı dissertasiya işi müdafiə edilmişdir və sonradan prosessual hüquq sahələri üçün metodoloji əsas kimi çıxış edən bir sıra müddəalar həmin işdə ümumi hüquq nəzəriyyəsi aspektindən şərh edilmişdir. S.N.Oleynikov «prosessual forma»nı spesifik elmi konstruksiya kimi göstərməklə onun mürəkkəb struktur quruluşuna malik olduğuna işarə etmişdir, eyni zamanda prosessual formanın məzmununun prosessual rejim, prosessual icraat və prosessual mərhələ kimi tərkib hissələrindən ibarət olduğunu irəli sürmüşdür (7, 93, 125, 164, 186).

Cinayət prosesinə dair hüquq ədəbiyyatında prosessual formanı izah etməyə çalışmış çox müəllifə rast gəlmək mümkündür. Lakin M.L.Yakub tərəfindən hazırlanmış «Sovet cinayət mühakimə icraatında prosessual forma» adlı əsərdə verilmiş izah indiyə kimi daha çox istinad edilən izahlardan biridir. Onun yanaşmasının əsas cəhətlərindən biri prosessual forma və prosessual qayda kateqoriyalarının eyniləşdirilməsi idi. Müəllif qeyd edirdi: «… prosessual forma məhkəmənin, istintaq və prokuror nəzarəti orqanlarının cinayət işlərinin başlanması, onların istintaqı və həll edilməsi üzrə fəaliyyətinin <…> cinayət prosesinin iştirakçıları, yaxud cinayət prosesinə bu və ya digər qisimdə cəlb edilmiş şəxslərin fəaliyyətinin <…>, bu fəaliyyət növləri ilə bağlı olan münasibətlərin hüquqi formasıdır» (12, 8).

Müasir dövrdə bu fikrin tərəfdarı olan S.Q.Maçixin prosessual formanın tərkibinə daxil olan elementləri postsovet cinayət prosesi konsepsiyasına uyğun şəkildə sadalamağa cəhd göstərmişdir (6, 17-18). Onun fikrincə, prosessual formanın məzmununa cinayət-prosessual qanunvericiliyində təsbit edilmiş

1) cinayət-prosessual mərhələlərin ardıcıllığı;

2) bir mərhələdən digər mərhələyə keçidin şərtləri;

3) konkret mərhələdə həyata keçirilən icraatı xarakterizə edən prosessual fəaliyyətin və şərtlərin ardıcıllığı;

4) istintaq, məhkəmə və cinayət-prosessual qanunvericilikdə təsbit edilmiş digər hərəkətlərin həyata keçirilməsi əsasları, şərtləri və qaydası;

5) cinayət prosesinin ayrı-ayrı mərhələlərində qəbul edilə biləcək qərarların məzmunu və forması aiddir.

A.V.Qrinenkonun redaktorluğu ilə hazırlanmış «Cinayət prosesi» dərsliyində «cinayət-prosessual forma» kateqoriyası cinayət-prosessual hüquq elminin əsas anlayışı kimi təqdim edilmişdir, bununla onun daha çox doktrinal

müstəvidə istifadə edilən kateqoriya olması göstərilmişdir. Həmin dərslikdə verilmiş izaha əsasən, «… cinayət-prosessual forma ibtidai araşdırmanın, məhkəmə baxışının və cinayət işlərinin həll edilməsinin, məhkəmə qərarlarının yoxlanılmasının həyata keçirilməsinin qanunla müəyyən edilmiş qaydasıdır <…>, eləcə də, konkret prosessual hərəkətlərin həyata keçirilməsi və onların nəticələrinin müvafiq protokollarda rəsmiləşdirilməsinin qaydalarıdır <…>, cinayət-prosessual forma özündə həm ümumilikdə cinayət mühakimə icraatına yönəlmiş, həm onun ayrı-ayrı mərhələlərində həyata keçirilən icraatlara yönəlmiş, həm də konkret istintaq hərəkətlərinə yönəlmiş tələblərin məcmusunu ehtiva edən bir anlayışdır». Bundan başqa, maraqlıdır ki, həmin müəlliflər cinayət-prosessual formanın sonrakı izahını bir qayda olaraq, istintaq hərəkətlərinin protokollarının formalarının hüquqi tənzimlənməsi məsələsi əsasında verirlər (10, 17).

V.V.Vandışev tərəfindən cinayət-prosessual forma daha detallı şəkildə izah edilmişdir. Həmin müəllifə görə, cinayət-prosessual forma prosessual hərəkətlərin həyata keçirilməsinin və prosessual qərarların qəbul edilməsinin qaydaları və prosedurlarıdır (şərtlər, əsaslar, müddətlər, ardıcıllıq, qayda). O, cinayət-prosessual formanın mahiyyətinin açılması üçün komparativ metoddan istifadə etmişdir və hüquq tətbiqetmə fəaliyyəti ilə cinayət-prosessual forma arasında paralel aparmışdır. Müəllif göstərmişdir ki, istənilən formada hüquq tətbiqetmə fəaliyyətinin əsas əlamətləri aşağıdakılardır:

1) fəaliyyət qaydasının qanunda dəqiq təsbit edilməsi;

2) prosessual fəaliyyətdə maraqlı şəxslərə şəxsən iştirak etmək hüququnun verilməsi;

3) maraqlı şəxslərə onların hüquqlarının və qanuni mənanefələrinin müdafiəsi üçün təminatların verilməsi;

4) təsbit edilmiş qaydada müəyyən edilmiş faktlar əsasında qanuni qərarın qəbul edilməsinin təmin edilməsi.

Müəllif göstərir ki, cinayət-prosessual formanın yuxarıda sadalanan əlamətlərlə yanaşı spesifik xüsusiyyətləri da mövcuddur və bu, maddi-hüquqi münasibətlərin xarakteri ilə şərtlənmişdir:

1) ictimailik prinsipinin dispozitivlik prinsipi üzərində üstünlüyü;

2) tələb olunan davranışın dövlət məcburiyyət tədbirləri ilə təmin edilməsi;

3) məcburiyyətin xarakterinin cinayətin ictimai təhlükəliliyindən asılılığı;

4) materialların məhkəməyədək hazırlanması;

5) şübhəli və təqsirləndirilən şəxslərin hüquqlarının xüsusi müdafiə vasitələri;

6) ədalət mühakiməsi – şəxsin üzərinə cinayət məsuliyyəti qoymanın və ona cəza təyin etmənin yeganə yolu;

7) prokuror nəzarəti, idarədaxili nəzarət və məhkəmə nəzarətinin məcburi formalarının seçmə formaları üzərində üstünlüyü (4, 25).

D.P.Velikiy «cinayət-prosessual forma» kateqoriyasına anlayış verməyə

cəhd etmişdir. Onun fikrincə, cinayət-prosessual forma dedikdə, cinayət prosesinin subyektlərinə yönəlmiş tələblər sistemi başa düşülməlidir. Bu tələblər sistemi cinayət-prosessual qanunvericilikdə təsbit edilməli və onun prinsiplərinə cavab verməli, onların həyata keçirilməsi cinayət mühakimə icraatının vəzifələrinin daha rasional və dəqiq həll edilməsinə nail olmanı təmin etməlidir (5, 317).

A.A.Slavqorodskix tərəfindən də məhz «cinayət-prosessual forma» kateqoriyasının şərh edilməsinə cəhd göstərilmişdir. Müəllifin fikirlərini aşağıdakı kimi ümumiləşdirmək olar: «…prosessual forma dövlət fəaliyyətinin xüsusiləşdirilmiş növüdür, <…> prosessual forma cinayət mühakimə icraatının daxili və xarici təzahürünün təşkil edilməsi vasitəsi kimi çıxış edir, <…> cinayət-prosessual forma dedikdə, cinayət prosesinin məhkəməyədək və məhkəmə icraatları formasında həyata keçirilməsi qaydaları və şərtləri başa düşülür» (8, 70-72).

A.A.Sıçev tərəfindən də «cinayət-prosessual forma»nın anlayışı məsələsinə toxunulmuşdur. Onun fikirlərini aşağıdakı kimi ümumiləşdirmək olar: «…cinayət-prosessual formadan danışarkən onun geniş və dar anlamlarda başa düşülə bilməsi imkanı nəzərə alınmalıdır, <…> geniş anlamda cinayət-prosessual forma ənənəvi məzmunda başa düşülür, dar anlamda ayrı-ayrı icraat növlərinin xüsusiləşdirilmiş cinayət-prosessual forması nəzərdə tutulur, <…> cinayət-prosessual formaya daimi inkişaf prosesi xasdır və bu inkişaf prosesində yalnız onun sadələşdirilməsi tendensiyası dominant rol oynamır» (9, 151-153).

Doktrinada müxtəlif cür izah olunduğunu müəyyən etdikdən sonra «prosessual forma» kateqoriyasının qüvvədə olan cinayət-prosessual qanunvericilikdə necə təzahür olunduğu haqqında məsələyə də toxunmağı zəruri hesab edirik. Əvvəldə qeyd etdiyimiz kimi, «prosessual forma» daha çox nəzəri kateqoriya olduğu üçün normativ səviyyədə terminologiya baxımından fərqli şəkillərdə təzahür oluna bilir. Bilavasitə «prosessual forma» terminindən qüvvədə olan cinayət prosessual qanunvericiliyinin yalnız bir maddəsində istifadə edilmişdir. Belə ki, AR CPM-in 301.1.2-ci maddəsinə əsasən, ittiham aktının, məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunda və ya xüsusi ittiham qaydasında şikayətin prosessual formasına riayət edildikdə, məhkəmə baxışı təyin edilə bilər. Başqa maddələrdə sadəcə «forma» terminindən istifadə edildiyinin şahidi olmaq mümkündür. Məsələn, AR CPM-in 52.3-cü maddəsinə əsasən, bütün prosessual qərarlar ciddi hesabat sənədləri olmaqla xüsusi formalı, nömrələnmiş blanklarda tərtib olunur, 134.1-ci maddəsinə əsasən, istintaq hərəkətlərinin və məhkəmə iclasının protokolları cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üçün əhəmiyyət kəsb edən halların bilavasitə qavranılmasını təsdiq edən və AR CPM-ə uyğun yazılı formada tərtib edilmiş sənədlərdir, 135.1-ci maddəsinə əsasən, şəxsin vəzifəsinə və yerinə yetirdiyi işə görə ona məlum olan halları imzası ilə təsdiq etdiyi və qanunvericiliyin müəyyən etdiyi formada tərtib edilmiş sənəd rəsmi sənəd hesab olunur.

Qüvvədə olan cinayət-prosessual qanunvericilikdə «forma» termini, bir qayda olaraq, prosessual aktın zahiri əlamətini və müraciətin şəklini müəyyən

etmək üçün istifadə edilir. Məsələn, AR CPM-in 107.1-ci maddəsinə əsasən, cinayət prosesində müvafiq şəxslərin iştirakına etirazlar və özü-özünə etirazlar əsaslandırılmaqla yazılı formada edilir, 122.3-cü maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanın hərəkətlərindən və qərarlarından şikayət yazılı, AR CPM ilə ərizənin yazılı forması xüsusi nəzərdə tutulmadıqda isə şifahi ola bilər (cinayət prosesini həyata keçirən orqan şifahi şikayəti bu zaman aparılan prosessual hərəkət protokolunda və ya ayrı protokolda qeyd edir).

Normativ səviyyədə prosessual formanın müəyyən edildiyi maddələrdə əsasən «qanunla müəyyən edilmiş qayda», «qanunda nəzərdə tutulmuş qayda», «qanunda nəzərdə tutulmuş hallar və qayda» ifadələrindən istifadə edilir. Normativ səviyyədə prosessual forma «şərtlər» termini ilə də ifadə edilir. Məsələn, AR CPM-in 75.2-ci maddəsinə əsasən, məhkəmə öz icraatına qəbul etdiyi cinayət işinə CPM-in 74.5 və 74.6-cı maddələrində nəzərdə tutulmuş şərtlərə uyğun başqa məhkəmədə baxılmalı olduğunu məhkəmə baxışı zamanı müəyyən edərsə, işi məhkəmə aidiyyəti üzrə göndərməlidir və ya 151.1-ci maddəsinə əsasən, təqsirləndirilən şəxs barəsində seçilmiş qətiimkan tədbirinin şərtləri pozulduqda, müstəntiq və ya prokuror onun tutulması barədə qərar çıxara bilər, yaxud 211.3-cü maddəsinə əsasən, CPM-in 211.2-ci maddəsində nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da cinayət təqibi ilə bağlı olan bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduqda başqa cinayət işi ayrıla bilməz və s.

Bəzən qanunda prosessual forma «əsaslar» termini ilə ifadə olunur. Məsələn, AR CPM-in 10.2-ci maddəsinə əsasən, AR-in qüvvəyə minmiş və dərc edilmiş qanunu ilə müəyyən olunan əsaslardan və qaydalardan kənar heç kəsin cinayət təqibi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsinə, tutulmasına, həbsə alınmasına, axtarılmasına, məcburi gətirilməsinə və digər prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına, habelə məhkum edilməsinə, cəzalandırılmasına, hüquq və azadlıqlarının digər formada məhdudlaşdırılmasına yol verilmir, yaxud AR CPM-in 14.2-ci maddəsinə əsasən, CPM və AR-in digər qanunu ilə müəyyən edilmiş əsaslar olmadan heç kəs tutula və həbs edilə bilməz.

Prosessual formanın qanunda təsbit edilməsinin daha bir texnikası isə, prosessual ardıcıllıq və müddət müəyyən edən «əvvəl», «sonra», «ərzində» və s. bu kimi terminlərdən istifadə edilməsidir. «Əvvəl» termini, bir qayda olaraq, qanunilik şərtinin təsbit edilməsi üçün, yəni ardıcıllığı pozulduğu təqdirdə sonrakı hərəkətlərin hüquqi qüvvəsi şübhəli ola biləcək hallarda qanuni ardıcıllıq müəyyən edən prosessual formanın müəyyən edilməsi üçün istifadə edilir. Məsələn, AR CPM-in 51.6-cı maddəsinə əsasən, prosessual hərəkətin aparılması zamanı texniki vasitələrdən istifadə olunmaqla audio və başqa yazılar, foto, video, kino və digər çəkilişlər həyata keçirilirsə, prosessual hərəkəti aparan şəxs hərəkəti başlamazdan əvvəl bütün iştirakçıları bu barədə xəbərdar edir; AR CPM-in 120.3-cü maddəsinə əsasən, cinayət prosesinin

iştirakçısı statusunu əldə etmiş şəxsin hüquq və vəzifələri onun iştirakı ilə keçirilən istintaq və ya digər prosessual hərəkətlərin icraatına başlanmamışdan və onun cinayət prosesinin iştirakçısı qismində hər hansı bir mövqeyini bildirməmişdən əvvəl izah edilir; AR CPM-in 170.2-ci maddəsinə əsasən, yetkinlik yaşına çatmamış şəxsin nəzarət altına verilməsindən əvvəl təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə valideynlərin, qəyyumların, yaxud himayəçilərin şəxsiyyəti, onların yetkinlik yaşına çatmamış şəxsə qarşı münasibətləri barədə məlumat toplamalı, şübhəli və ya təqsirləndirilən şəxsi lazımi nəzarət altında saxlamalarını həyata keçirmək iqtidarında olduqlarını yəqin etməlidir və s. «Sonra» termini prosessual formanın müəyyən edilməsində «əvvəl» termini ilə eyni funksiyanı yerinə yetirir, sadəcə olaraq daha tez edilməli hərəkətə deyil, daha gec edilməli olan hərəkətə, yaxud daha gec edilməsi qadağan edilən hərəkətə işara edir. Məsələn, AR CPM-in 51.2-ci maddəsinə əsasən, cinayət təqibi üzrə prosessual hərəkətin aparılması haqqında protokol bu hərəkətin gedişi zamanı və ya qurtardıqdan bilavasitə sonra həmin hərəkəti aparan təhqiqatçı, müstəntiq, prokuror və ya digər müvəkkil edilmiş şəxs tərəfindən tərtib edilir; AR CPM-in 86.6-cı maddəsinə əsasən, cinayət işi prokuror və ya müstəntiq tərəfindən icraata qəbul olunduqdan sonra təhqiqatçı ayrı-ayrı istintaq hərəkətlərini, habelə müvafiq əməliyyat-axtarış tədbirlərini yalnız prokurorun və ya müstəntiqin göstərişləri ilə işlədiyi təhqiqat orqanı vasitəsilə həyata keçirir; AR CPM-in 95.3-cü maddəsinə əsasən, cinayət prosesində müdafiəçi, habelə zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin nümayəndəsi qismində iştirakı ilə əlaqədar həmin cinayət işinə dair məlumatları bilən şəxslər müdafiə etdikləri və ya hüquqlarını təmsil edən şəxsin razılığı ilə onun xeyrinə ifadə verə bilərlər, lakin bu fakt həmin şəxslərin bundan sonra cinayət prosesində iştirakını istisna edir və s.

«Ərzində» termini periodik prosessual forma müəyyən etməklə, yol verilən və ya qadağan edilən prosessual hərəkətin zaman kəsiyini ifadə edir. Məsələn, AR CPM-in 132.0.5-ci maddəsinə əsasən, maddi sübut olan sənədlər cinayət təqibi üzrə icraat materiallarının saxlanma müddəti ərzində işdə saxlanılır və ya maraqlı təşkilatlara və şəxslərə verilir; AR CPM-in 384.4-cü maddəsinə əsasən, apelyasiya şikayətinin və ya apelyasiya protestinin verilməsi üçün müəyyən edilmiş müddət ərzində cinayət işi yuxarı məhkəmə tərəfindən birinci instansiya məhkəməsindən tələb edilə bilməz və s.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası / red. Mövsümov C.H. Bakı: Digesta, 2007, 182 s.
2. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Bakı: Qanun, 2008, 231 s.
3. Mövsümov C.H. Sovet cinayət prosesi. Bakı: Maarif, 1989, s.
4. Вандышев В.В. Уголовный процесс. Курс лекций. СПб: Питер, 2002, 342 с.
5. Великий Д.П. Уголовно-процессуальная форма: понятие, история развития / Труды преподавателей Оренбургского института Московской государственной юридической академии. Сборник научных трудов. Выпуск 1, Оренбург, 1999, с. 26-31.

6. Мачихин С.Г. Процессуальная форма в уголовном судопроизводстве России. Дисс. … к.ю.н., М., 2006, 150 с.
7. Олейников С.Н. Общетеоретические проблемы юридической процессуальной формы. Дисс. … к.ю.н., Харьков, 1986, 172 с.
8. Славгородских А.А. Процессуальная форма и ее значение для обеспечения прав и свобод человека и гражданина в уголовном судопроизводстве на третьем этапе судебной реформы // Вестник ЮУГУ, 2007, № 18, с. 82-86.
9. Сычев А.А. Дифференциация уголовно-процессуальной формы производства по делам о несовершеннолетних. Дисс. … к.ю.н. Нижний Новгород, 2009, 160 с.
10. Уголовный процесс. Учебник для вузов // Отв. ред. А.В.Гриненко. М.: Норма, 2004, 400 с.
11. Юридическая процессуальная форма / Под ред. Горшенев В.М., Недбайло П.Е. М.: Юридическая литература, 1976, 280 с.
12. Якуб М.Л. Процессуальная форма в советском уголовном судопроизводстве. М.: Юридическая литература, 1981, 198 с.

## НАУЧНЫЙ ПОДХОД К КАТЕГОРИИ «УГОЛОВНО-ПРОЦЕССУАЛЬНАЯ ФОРМА»: ТЕОРЕТИЧЕСКИЙ АНАЛИЗ

**М.А.ПАШАЗАДЕ**

### РЕЗЮМЕ

Статья посвящена понятию уголовно-процессуальной формы. Автор отмечает, что, несмотря на факт частого оперирования категорией «уголовно-процессуальная форма» в теории уголовного процесса, вопросы о едином понимании ее сущности и об элементах ее системы остаются открытыми. Данная статья была написана с целью, как то обобщить классические и современные позиции авторов, высказавших мнение о содержании уголовно-процессуальной формы. Автор приходит к выводу, что классическое понимание уголовно-процессуальной формы до сих пор актуально, но требует современной интерпретации.

**Ключевые слова:** уголовный процесс, процессуальная форма, правила, условия, система, теоретический анализ

## THE SCIENTIFIC APPROACH TO THE CATEGORY OF CRIMINAL PROCEDURAL FORM: THEORETICAL ANALYSIS

**M.A.PASHAZADE**

### SUMMARY

The article is devoted to the concept of the criminal procedural form. The author notices that, despite the fact of frequent operation by the category of «the criminal procedural form» in criminal trial theories, questions on uniform understanding of its essence and on elements of its system remain open. The article aims to generalize classical and modern positions of the authors, expressed opinions on the maintenance of the criminal procedural form. The author comes to a conclusion that the classical understanding of the criminal procedural form is still actual, but demands modern interpretation.

**Keywords:** criminal process, procedural form, rules, conditions, system, theoretic analysis